# Xalq artisti Tofiq Tağızadənin şəxsi arxiv fondu yaradılıb



**Azərbaycan Dövlət Film Fondunda Xalq artisti, kinorejissor Tofiq Tağızadənin 105 illiyi münasibətilə şəxsi arxiv fondu yaradılıb.**

Fonda görkəmli sənətkarın şəxsi fotosənədləri, diplom və fəxri fərmanları, qəzet və jurnal materialları daxil edilib.

Şəxsi arxiv fondunda yer alan sənədlər T.Tağızadənin kürəkəni, Əməkdar artist, aktyor Firdovsi Atakişiyev və digər kinematoqrafçılar tərəfindən təhvil verilib. Tofiq Tağızadə "Görüş", "Uzaq sahillərdə", "Arşın mal alan", "Mən ki gözəl deyildim", "Yeddi oğul istərəm", "Dədə Qorqud", "Bağ mövsümü", "O dünyadan salam" və digər ekran əsərlərinin quruluşçu rejissoru olub.

Azərbaycan.- 2024.- 28 fevral, № 45.- S.11.